quite differently. Such a student, having received information from the teacher, begins to understand all the tasks, that is, turns them into an object of attention, checks and controls them. This student easily detects hidden errors in the text and corrects them.

***Rəyçi: prof. Ş.T.Tağıyev***
***Ümumi pedaqogika kafedrasının 15 fevral 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olduğu tarix 17 fevral 2023-cü il***

**UOT (UDK) 3.37**

# MÜASİR TƏHSİLDƏ PEDAQOJİ DİAQNOSTİKANIN MAHİYYƏTİ, MƏQSƏDLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

***dosent Bayramova Ziyafət Vilayət qızı, Salahova Kamilə Zakir qızı***
***Gəncə Dövlət Universiteti***
**ziyafet@bk.ru,**
*kamile.salahova.82@inbox.ru*

**Xülasə:** *Müasir şəraitdə pedaqoji diaqnostika müəllimin peşə fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Pedaqoji diaqnostikanın məktəblərdə təhsil prosesinin qurulmasında, təlim-tərbiyə işinin təkmilləşdirilməsində mahiyyəti, məzmunu, metodlar məcmusu, prosesin bəzi xüsusiyyətləri və şərtləri nəzərə alınmaqla bütövlükdə iş prosesinin istiqamətləri müəyyənləşir.*

*Pedaqoji diaqnostikanın nəzəri baxımdan inkişafı, təkmilləşdirilməsi peşə təhsil sistemində tədqiqi vacib məsələlərdən olmaqla böyük aktuallıq kəsb etməkdədir. Pedaqoji diaqnostikanın tətbiqi müasir məktəbdə şagirdlərin və pedaqoji kadrların keyfiyyət göstəricilərinə verilən tələblər qarşıya çıxan praktik və elmi - pedaqoji vəzifələrin dövrün tələbinə uyğun konkretləşdirilməsinə imkan yaradır.*

**Açar sözlər:** pedaqoji diaqnostika, məzmun, mahiyyət, təhsilin keyfiyyəti, keyfiyyət göstəriciləri

**Ключевые слова:** педагогическая диагностика, содержание, сущность, качество образования, качественные показатели.

**Key words:** pedagogical diagnostics, content, essence, the quality of education, quality indicators.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir [1].

Hazırda pedaqoji diaqnostika müəllimin peşə fəaliyyətinin tərkib hissəsi kimi qəbul edilir. Onun mahiyyətinin, məzmununun, metodlarının, xüsusiyyətlərinin və şərtlərinin müasir təhsil prosesinə təsiri məktəblərdə təlim-tərbiyə işinin təkmilləşdirilməsinin və iş prosesinin qurulmasının ən mühüm istiqamətlərini müəyyənləşdirir.

Müasir mərhələdə alimlər və praktik müəllimlər pedaqoji diaqnostikaya təlim və tərbiyə prosesinin optimallaşmasını təmin edən amil kimi yanaşırlar. Pedaqoji diaqnostika təhsil subyektlərinin inkişafının, təhsilinin və tərbiyəsinin, o cümlədən mənəvi tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi mexanizmidir [2].

Bu gün peşə təhsili sistemində pedaqoji diaqnostikanın nəzəri aspektlərinin inkişafı və təkmilləşdirilməsi pedaqoji və tədqiqi baxımından aktual elmi-nəzəri məsələlərdən biridir. Müasir şəraitdə müdavimlərin və peşəkar pedaqoqların keyfiyyət göstəricilərinə verilən tələblər qarşıya çıxan praktik və elmi-pedaqoji vəzifələrin dövrün tələbinə uyğun konkretləşdirilməsinə imkan yaradır.

Pedaqoji diaqnostikanın məzmunu və mahiyyəti dedikdə, tədqiqatçılar tərəfindən aşağıdakılar təqdim edilir:pedaqoji məqsədlərin diaqnostikasının aparılması-təhsilin keyfiyyətinin yüksəldilməsinə dair informasiyanın əldə olunması, şagird şəxsiyyətinin inkişafı, pedaqoji fəaliyyətin keyfiyyət göstəriciləri haqqında informasiyanın əldə edilməsi; -pedaqoji fəaliyyət prosesində metodların məntiqi ardıcıllıqda istifadəsi;

–pedaqoji prosesdə pedaqoji diaqnostika vasitəsi ilə yoxlayıcı analitik və qiymətləndirici funksiyaların təkmilləşdirilməsi;

–pedaqoji diaqnostikanın üsul və vasitələrinin təlim-tərbiyənin üsul və vasitələrinə transformasiyası.

Bir çox tədqiqatçıların fikrincə pedaqoji diaqnostika pedaqoji fəaliyyətin spesifik və mürəkkəb növüdür, tərbiyəçi və tərbiyə olunan arasındakı əks-əlaqədir və məzmun baxımından tərbiyə olunanın öyrənilməsinə, inkişafına istiqamətlənir. Pedaqoji diaqnostikanın məzmunu və sistem olaraq tam açıqlanması imkansızdır, çünki konkret pedaqoqun fəaliyyət komponentlərinə aiddir, buna bağlı çətinliklərin olması müasir insanın şəxsiyyətinin inkişaf məsələsinə bağlıdır.

Pedaqoji diaqnostika - təlim prosesinin vəzifələrinin optimal həllinə yönəlmiş nəzarətin və qiymətləndirmənin priyomlarının cəmidir ki, şagirdlərə differensial yanaşmanı və təhsil proqramlarının təkmilləşdirilməsinə, pedaqoji metodların təsisirinə istiqamətlənmişdir. Pedaqoji diaqnostika xüsusi tərtib edilmiş, sistemləşdirilmiş tapşırıqlardan ibarət olduğu da vurğulanır ki, onların sayəsində aşağıdakılara nail olmaq imkanı vardır:

–təhsil proqramlarının şagirdlə tərəfindən mənimsənilməsi xüsusiyyətlərini müəyyən edirik;

–şagird üçün çətinlik yaradan məqamların xüsusiyyətlərinin öyrənilməsini, səbəblərin tapılmasını konkretləşdiririk;

–təlim fəaliyyətində mənimsəmənin səviyyəsini bilmək;

–təhsil alanın inkişaf səviyyəsini dəyərləndirilməsi.

Pedaqoji diaqnostikanın məqsədləri - təhsil prosesinin optimallaşdırılması, hər bir təhsil alan uşağın potensialının reallaşdırılması üçün konkret şərtlərin təqdim edilməsidir.

Pedaqoji diaqnostikanın vəzifələri elmi-pedaqoji ədəbiyyatlara istinadla aşağıdakı kimi təqdim etmək olar:

–Şəxsiyyətyönümlü yanaşmalrın təqdim edilməsinə şəraitin yaradılması

–Müəllimin peşəkar diaqnostikasının nəticələrinin düzgün müəyyən edilməsini təmin edilməsi.

–Müəllimin peşəkar diaqnostikasının nəticələrinin düzgün müəyyən edilməsinə nail olmaq.

–Pedaqoji səhvləri minimuma endirmək.

–Şagirdin şəxsiyyətinin effektiv özünüinkişaf məsələsi üçün şərtlərə aydınlıq gətirilməsi.

–Müəllimin peşəkar inkişaf səviyyəsini və fəaliyyətini qiymətləndirmək.

Pedaqoji diaqnostikanın əsas istiqamətlərini aşağıdakı kimi təqdim etmək olar:

1.Tərbiyəliliyin diaqnostikası-şəxsiyyətlərarası münasibətlər sistemində reallaşdırılması nəzərdə tutulanlar insanın şəxsi keyfiyyətləri və səviyyəsinin müəyyənləşdirilməsinə istiqamətlənmiş prosesdir. Tərbiyə texnologiyalarının komponentlərinin məzmununun

korreksiyası, dəqiqləşdirilməsi istiqaməti analiz və nəticələr əsasında aparılmasını nəzərdə tutur.

1. Şagirdin təlim alması və təlim nəticələri əsasında aparılan didaktik diaqnostikası.

2. Diaqnostik idarəetmə (təşkili - metodik) təhsil müəssisələrinin arsenalında mövcud metodiki, təşkilati, pedaqoji prosesdə həllini gözləyən məqsədlər və vəzifələrin maddi – texniki şərtlərinin gözlənilməsi imkanı.

3. Sosial-pedaqoji diaqnostika – pedaqoji prosesə güclü təsir edən sosial pedaqoji şərtlərin və faktorların müəyyən edilməsi (sosial makro- və mikro-mühit, ailə, məktəbdənkənar müəssisələr).

4. Pedaqoji psixodiaqnostika tədqiqat obyektinin (kollektiv, şəxsiyyət, proses, hadisə) gedişatında problemlərin dərindən öyrənilməsi, uşağın inkişafınınfərdi xüsusiyyətlərinin inkişaf tendensiyalarının müəyyənləşdirilməsi.

5. Valeopedaqoji diaqnostika – pedaqoji prosesin və təhsil mühitinin dəyişkən xüsusiyyətlərinin öyrənilməsi və səhhətinə təsiri, uşağın valeoloji tərbiyəsi.

Mövcud elmi –pedaqoji ədəbiyyat tədqiq edildikdə pedaqoji diaqnostikanın funksiyaları bağlı Qolubev N.K. və Bitinis B.P. tədqiqatlarını diqqətə layiq jesab etdik [3]. Burada maraqlı ardıcıllıqla pedaqoji prosesdə diaqnostik məsələlərə dair funksiyaların rolu və izahı vardır. Bu və digər elmi-pedaqoji ədəbiyyatların analitik təhlili əsasında aşağıdakı qənaətə gəldik:

Əks - əlaqə funksiyası: pedaqoji prosesdə öz fəaliyyətinə nəzarət etmədən müəllim şəxsiyyətin formalaşması prosesini idarə edə bilməz.

Qiymətləndirici (dəyərləndirici) funksiya: pedaqoji fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi əldə edilmiş pedaqoji nəticələrin meyar və göstəricilərlə müqayisəsinə əsaslanır.

Funksiya tərbiyələndirici və həvəsləndiricidir: münasibətlər, dəyərlər, motivasiya və stimullaşdırma sisteminin formalaşması, hər bir şagirdin fərdi olaraq yaradıcılığa sövq edən real fəaliyyətə daxil edilməsi.

Kommunikativ funksiya: təhsil prosesi iştirakçılarının fərdi tipoloji xüsusiyyətlərini nəzərə alaraq şəxsiyyətlərarası kommunikativ bacarıqlarının formalaşdırılması.

Konstruktiv fuknsiya: təhsil prosesinin komponentlərinə dəyişikliklər və pedaqoji düzəlişlər etmək.

İnformasiyanın ötürülməsi funksiyaları: pedaqoji diaqnostikanın nəticələri haqqında tədris prosesinin iştirakçılarına məlumat vermək və ya pedaqoji sirlərin saxlaması.

Proqnostik funksiya: proqnozlaşdırma, inkişaf perspektivlərinin müəyyən edilməsi.

Pedaqoji diaqnostika təhsil prosesinin xüsusiyyətləri ilə müəyyən edilmiş bir sıra prinsiplər nəzərə alınmaqla həyata keçirilir. Pedaqoji diaqnostikanın aşağıdakı prinsiplərini göstərmək olar:

1.Pedaqoji hadisənin hərtərəfli öyrənilməsində tamlıq prinsipi ehtimalı:

–tədqiqatda sistemli yanaşmadan maksimum istifadə;

–tədqiq olunan keyfiyyətlə şəxsiyyətin əsas qüvvələri, yəni onun mənəvi aləmində əsas olan - oriyentasiya, prinsiplərə sadiqlik, yaş xüsusiyyətləri, ümumi inkişaf səviyyəsi, əsas inanclar arasında əlaqə yaratmaq;

–şəxsiyyət keyfiyyətinin formalaşmasına təsir edən xarici amillərin müxtəlifliyini, pedaqoji prosesin gedişatını və bu təsirlərin idarə edilməsi metodologiyasının pedaqoqlar tərəfindən təqdim edilməsi;

–tədqiq olunan hadisənin mexanizminin - hərəkətverici qüvvələrin, onların baş verməsinin, inkişafının, qarşılıqlı təsirinin, tərkib elementlərinin və onların əlaqəsinin, inkişaf mərhələlərinin, bu inkişafın asılı olduğu şərtlərin və amillərin açıqlanması;

–öyrənilən pedaqoji hadisənin tərbiyə prosesində yerinin dəqiq müəyyən edilməsi - onun spesifikliyi, ümumi və xüsusi funksiyaları.

2.Tədqiqat metodlarından kompleks şəkildə istifadəsi prinsipi aşağıdakı tələbləri irəli sürür:

–verilmiş müddəalar əsasında pedaqoji rəhbərlik işinin qurulmasını tədqiqatın vəzifələrinin icrası prosesində hadisənin mahiyyətinin dəqiqləşdirilməsi, pedaqoji hadisələrin öyrənilməsində çoxməqsədli əsaslarla onun hərəkətverici qüvvələrinin, daxili və xarici faktorların müəyyənləşdirilməsini;

–tədqiq olunan proses daxilində hadisənin başqaları ilə mümkün qədər çox əlaqəsini göstərmək və onlardan ən önəmlisini vurğulamaq;

–tədqiqat işi apararkən bütün xarici təsirləri nəzərə almaq, pedaqoji prosesin mənzərəsini təhrif edən təsadüfləri aradan qaldırmaq;

–eyni pedaqoji faktın müxtəlif tədqiqat metodlarından istifadə etməklə dəfələrlə yoxlanılması, alınan məlumatların daimi yoxlanılması və dəqiqləşdirilməsi;

–tədqiqatda əldə edilən nəticələrin fəlsəfi, məntiqi və psixo-pedaqoji təhlili.

Beləliklə, məktəbdə baş verən proseslər, hadisələr haqqında müqayisəli informasiyaların güclü və zəif tərəflərini göstərməklə, müasirtələblərə müvafiq təlim-tərbiyənin demokratik müstəvisində həllini tapmağa çalışdığımız tərbiyə məsələləri idarəetmənin məktəb və müəllim səviyyəsində təzahürü konkret və optimal seçimlərin edilməsinə imkan yaradır. Bu cür informasiyanı yalnız pedaqoji diaqnostikaya əsaslanaraq təqdim etmək olar ki, peşəkar pedaqoq fəaliyyətinin həm başlanğıc, həm də nəticələndirici məqamlarını özündə cəm edir, ardıcıl məntiqi mərhələləri gözləməklə bir çox məsələlənir həllinə yönəlir. Pedaqoji diaqnostikanın nəticələri pedaqoqun innovativ fəaliyyətinə güclü təkan verməyə malikdir.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013
2. Bakışlı F.O. Yeniyetmələrdə mənəvi tərbiyənin diaqnostikası üzrə işin pedaqoji əsaslar. 5804.01 - ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın Aftoreferatı. Bakı,2017
3. Qolubev N.K. Педагогическая диагностика в научной модели мира. Парадигма и философский аспект диагностики - теория познания - Общая теория измерений. 2014 https://cyberleninka.ru/article/n/pedagogicheskaya-diagnostika-v-nauchnoy-modeli-mira-paradigma-i-filosofskiy-aspekt-diagnostiki-teoriya-poznaniya-obschaya-teoriya/viewer

## СУЩНОСТЬ, ЦЕЛИ И НАПРАВЛЕНИЯ ПЕДАГОГИЧЕСКОЙ ДИАГНОСТИКИ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ

***Байрамова Зияфат Вилаят кызы, Салахова Камила Закир кызы***

***Резюме***

В настоящее время педагогическая диагностика рассматривается как часть профессиональной деятельности учителя. Воздействие его характера, содержания, методов, характеристик и условий на современный образовательный процесс определяет важнейшие направления совершенствования воспитательной работы и налаживания рабочего процесса в школах.

На сегодняшний день разработка и совершенствование теоретических аспектов педагогической диагностики в системе профессионального образования является одним из актуальных научно-теоретических вопросов с точки зрения педагогики и научных исследований. В современных условиях требования, предъявляемые к качественным показателям школьников и профессиональных педагогов, позволяют конкретизировать возникающие практические и научно-педагогические задачи в соответствии с требованиями времени.

## THE ESSENCE, GOALS AND DIRECTIONS OF PEDAGOGICAL DIAGNOSTICS IN MODERN EDUCATION

***Bayramova Ziyafat Vilayat, Salakhova Kamala Zakir***

***Summary***

Currently, pedagogical diagnostics is considered as part of the teacher's professional activity. The impact of its nature, content, methods, characteristics and conditions on the modern educational process determines the most important directions for improving educational work and establishing a working process in schools.

Today, the development and improvement of the theoretical aspects of pedagogical diagnostics in the system of vocational education is one of the topical scientific and theoretical issues from the point of view of pedagogy and scientific research. In modern conditions, the requirements for the quality indicators of schoolchildren and professional teachers make it possible to specify the emerging practical and scientific and pedagogical tasks in accordance with the requirements of the time.

***Rəyçi:dosent Quliyev Allahverdi***
***Ümumi pedaqogika kafedrasının 11 yanvar 2023-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olmatarixi 02 fevral 2023-cü il***

**UOT:378.**

## AZƏRBAYCANIN ALİ TƏHSİL SİSTEMİNDƏ STRUKTUR DƏYİŞİKLİKLƏRİ

***Məmmədova Aytən Rafət qızı***
***Gəncə Dövlət Universiteti***
***Ayten.memmedova@inbox.ru***

**Xülasə:** *Təhsili beynəlxalq standartlara uyğunlaşdırmaq, müstəqil Azərbaycan Respublikasının təhsilini Avropa məkanına inteqrasiya etdirmək zərurəti ali hətsilin məzmununda əsaslı dəyişikliklərə səbəb oldu.*

*Azərbaycanda ali təhsilin nüfuzu yüksəkdir. Ali məktəblərin tələbə qəbulu üzrə imkanları praktiki olaraq onlara olan tələbə tam cavab verir. Yüksək müsabiqə isə təhsil resurslarının çatışmaması ilə deyil, ali məktəbin və ya ixtisasın cəlbediciliyi ilə izah olunur.*

*Ali təhsilin iki pilləli sistemi çərçivəsində mütəxəssis hazırlığında fənlərarası inteqrasiyanı təmin etmək daha asan olur. Bakalavr hazırlığı bir ixtisas sahəsində həyata keşirilir. Magistr proqramı isə müxtəlif sahələrin qovşağında yaradıldığından, əmək bazarındakı dəyişikliklərə daha həssas olur.*

**Açar sözlər:** ali məktəb,bolonya sistemi,təhsil,dövlət,magistratura pilləsi, beynəlxalq

**Ключевые слова:** высшее образование,Болонская система, образование, государственный, магистерский уровень, международный

**Key words**: university, Bologna system, education, global, state, master's level, international

Azərbaycanda təhsilin çox dərin kökləri olsa da, o, yalnız XX əsrin 20-ci illərindən başlayaraq hərtərəfli inkişaf etmişdir. Çox qısa bir müddət ərzində ölkədə savadsızlıq tam aradan qaldırılmış, geniş təhsil müəssisələri şəbəkəsi yaradılmışdı.

XX əsrin son on illiyi SSRİ-nin dağılması, milli dirçəliş ideyasının güclənməsi ilə səciyyələndi. Müstəqilliyini əldə edən Azərbaycan, digər postsovet respublikaları kimi, çoxlu sayda iqtisadi, siyasi və ideoloji problemlərlə üz-üzə qaldı. İqtisadi sahədə böhran istehsal